# THE IMPORTANCE OF COMBAT PRINCIPLES IN MILITARY ART

**Alesker Agayev**[1]

**UDC:** 355.42:355.02
**LBC:** 68.25:68.21
**HoS:** 135
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.98-113

**Keywords:**

Security,
Military art,
Principles of combat,
Assessment,
Regularity

## ABSTRACT

The article presents the principles of combined arms combat—the fundamental provisions for the preparation and conduct of combat, scientifically substantiated and the most important recommendations tested in practice. They express the practical ways of applying the objectively existing regularities of combat activities at the tactical level. The principles of combined arms combat are reflected in statutes, manuals, and other guiding documents.

Knowledge of the principles of conducting combat assists commanders and staffs in their practical activities and enables them to demonstrate logically consistent initiative and creativity in troop command and control. The article shows commanders the correct ways to achieve the objectives set before them in any combat situation by being guided by the principles of conducting combat.

As a result of the analysis of the research, it has been determined that the irreversible influence and vitality of the principles of military art lie in the fact that they objectively reflect the nature and character of armed struggle and its regularities, and therefore allow commanders and staffs to make correct decisions in the most complex conditions, to find the most effective methods for the employment of weapons and combat equipment, and to skillfully achieve the defeat of the adversary.

In conclusion, the purpose of this study is to demonstrate that operational skill, as the most important component of military art, is continuously developing, and that its role and significance have increased to an irreplaceable degree under modern conditions.

**Subject area:**

Humanitarian and Social Sciences

**Research field:**

Military sciences

[1] Senior Lecturer, Department of Physical Training, Azerbaijan Sports Academy; Baku, Azerbaijan
E-mail: elesgeragayev70@gmail.com
https://orcid.org/0009-0009-6430-6117

**To cite this article:** Agayev, A. [2026]. The Importance of Combat Principles in Military Art. *History of Science journal*, *7*(1), pp.98-113.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.98-113

***Article history:***
*Received: 27.12.2025*
*Revised: 29.01.2026*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# HƏRB SƏNƏTİNDƏ DÖYÜŞ PRİNSİPLƏRİNİN ƏHƏMİYYƏTİ

**Ələsgər Ağayev**[1]

**UOT:** 355.42:355.02
**KBT:** 68.25:68.21
**HoS:** 135
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.98-113

**Açar sözlər:**

Təhlükəsizlik,
Hərb sənəti,
Döyüş prinsipləri,
Qiymətləndirmə,
Qanunauyğunluq

**Sahə:**

İctimai və Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Hərb elmləri

## ANNOTASİYA

Məqalədə Ümumqoşun döyüşünün prinsipləri - döyüşün hazırlanması və aparılması üzrə əsas müddəalar, elmi cəhətdən əsaslandırılmış və praktikada yoxlanmış ən mühüm tövsiyələr yer almışdır. Onlar taktiki miqyasda döyüş fəaliyyətlərinin obyektiv mövcud olan qanunauyğunluqlarının praktiki olaraq tətbiqi yollarını ifadə edirlər. Ümumqoşun döyüşünün prinsipləri nizamnamələrdə, təlimatlarda və digər rəhbəredici sənədlərdə əks etdirilir.

Döyüşün aparılması prinsiplərini bilmək komandirlərə və qərargahlara praktiki fəaliyyətlərində köməklik göstərir, qoşunlarla idarəetmədə məntiqə uyğun təşəbbüsü və yaradıcılığı göstərməyə imkan yaradır. Məqalədə komandirlərə döyüşün aparılması prinsiplərini əldə rəhbər tutaraq, onlara hər hansı bir döyüş qarşısında qoyulmuş məqsədə çatmağın düzgün həlli yolları göstərilir.

Tədqiqatların təhlili nəticəsində müəyyən olmuşdur ki, hərbi sənət prinsiplərinin dönməz təsiri, həyatiliyi ondadır ki, onlar silahlı mübarizənin təbiəti və xarakterini, qanunauyğunluqlarını obyektiv əks etdirir və buna görə də komandirlərə, qərargahlara ən mürəkkəb şəraitlərdən düzgün qərar vermə, silah və döyüş texnikasının tətbiqinin ən səmərəli üsullarını tapmağa, məharətlə rəqibin darmadağın olmasına nail olmağa imkan verir.

Yekunda nəticə olaraq bu araşdırmanın məqsədi əməliyyat məharətinin, hərb sənətinin ən mühüm tərkib hissəsi kimi fasiləsiz inkişaf etməsini, rolu və əhəmiyyətinin müasir şəraitdə əvəzolunmaz dərəcədə artdığını göstərməkdir.

[1] Azərbaycan İdman Akademiyası, Fiziki hazırlıq kafedrasının baş müəllimi; Bakı, Azərbaycan
E-mail: elesgeragayev70@gmail.com
https://orcid.org/0009-0009-6430-6117
**Məqaləyə istinad:** Ağayev, Ə. [2026]. Hərb Sənətində Döyüş Prinsiplərinin Əhəmiyyəti. *History of Science jurnalı*, 7(1), səh.98-113.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.98-113

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 27.12.2025*
*Yenidən baxılıb: 29.01.2026*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ПРИНЦИПЫ ВЕДЕНИЯ БОЯ ВОЕННОЕ ИСКУССТВО

**Алескер Агаев**[1]

**УДК:** 355.42:355.02
**ББК:** 68.25:68.21
**HoS:** 135
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.98-113

**Ключевые слова:**

Безопасность,
Военное искусство,
Принципы Боя,
Оценка,
Закономерность

**Область исследования:**

Гуманитарные и социальные науки

**Научная область:**

Военные науки

## АННОТАЦИЯ

В статье представлены принципы общевойскового боя — основные положения по подготовке и ведению боя, научно обоснованные и наиболее важные рекомендации, проверенные на практике. Они выражают практические пути применения объективно существующих закономерностей боевой деятельности в тактическом масштабе. Принципы общевойскового боя отражены в уставах, наставлениях и других руководящих документах.

Знание принципов ведения боя оказывает помощь командирам и штабам в их практической деятельности, позволяет проявлять логически обоснованную инициативу и творчество в управлении войсками. В статье командирам показаны правильные пути достижения поставленных перед ними целей в любом бою при руководстве принципами ведения боя.

В результате анализа исследований установлено, что необратимое воздействие и жизненность принципов военного искусства заключаются в том, что они объективно отражают природу и характер вооружённой борьбы, её закономерности и тем самым позволяют командирам и штабам принимать правильные решения в самых сложных условиях, находить наиболее эффективные способы применения вооружения и боевой техники, а также умело добиваться разгрома противника.

В итоге в качестве заключения целью данного исследования является показать, что оперативное мастерство, как важнейшая составная часть военного искусства, непрерывно развивается, а его роль и значение в современных условиях возросли до незаменимого уровня.

[1] Старший преподаватель кафедры физической подготовки Азербайджанской академии спорта; Баку, Азербайджан
E-mail: elesgeragayev70@gmail.com
https://orcid.org/0009-0009-6430-6117

**Цитировать статью:** Агаев, А. [2026]. Принципы Ведения Боя Военное Искусство. *Журнал History of Science*, *7*(1), с.98-113.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.98-113

***История статьи:***
*Поступила: 27.12.2025*
*Переработана: 29.01.2026*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Ensiklopedik mənbələrdə "prinsip" termini əsas qayda, müddüa, hər hansı fəaliyyət üçün göstəriş kimi izah olunur. Döyüş prinsipləri hərbi nəzəriyyəyə hərbi birlik, birləşmə, hissə və bölmələrin döyüş fəaliyyətinin müxtəlif tərəflərinin münasibətləri (əlaqələri), döyüşə hazırlıq və onun aparılması üzrə əsas ideyalar, tövsiyələr kimi daxil olmuşdur. Hərb sənətin prinsiplərini tamamilə haqlı olaraq hərbi müdrikliyin cövhəri, sərkərdənin idarəetmə fəaliyyətində yol göstərən mayak adlandırırlar. Onlarda çoxsaylı müharibələrin təcrübəsi cəmlənmiş, sərkərdələrin yaradıcı tapıntıları, məğlubiyyətlərin acı dərsləri və qələbələrin nəticələrinin təhlili öz əksini tapmışdır. Prinsiplər hərbi təcrübənin olduqca qiymətli elmi estafeti kimi nəsildən nəsilə ötürülmüşlər. Müasir şəraitdə qabaqcıl dünya ölkələrində nüvə və uzaqvuran yüksək dəqiqlikli silahların, effektiv kəşfiyyat, naviqasiya və idarəetmə sistemlərinin mövcudluğu, eyni zamanda Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən lokal müharibə və silahlı münaqişələrin aparılma ehtimalının artırılması ilə əməliyyat məharətinin rolu və əhəmiyyəti ölçülməz dərəcədə çoxalır. Döyüşün aparılması prinsiplərini bilmək komandirlərə və qərargahlara praktiki fəaliyyətlərində köməklik göstərir, qoşunlarla idarəetmədə məntiqə uyğun təşəbbüsü və yaradıcılığı göstərməyə imkan yaradır

## 2.Hərb sənətində döyüşün prinsipləri

Prinsiplər döyüş təcrübəsinin özünəməxsus varislik estafeti olub, bir nəsilin digərinə verdiyi öyüd kimi başa düşülür. Hərbi işdə gedən dəyişikliklərin qloballığına görə hazırkı dövrün keçmişdə analoqu olmayıb. Keçmiş müharibələrin dərsləri bu gün bir çox hallarda hərb sənətindəki yeni hadisələrin qiymətləndirilməsində çıxış nöqtəsi, meyar ola bilməsələr də, bununla belə döyüş hərəkətlərinin forma və üsullarının inkişafında irəliləyiş pozulmur və deməli, çoxəsrlik hərbi praktikanın işləyib hazırladığı prinsiplər öz dəyərini saxlayır. Onlar keçmiş, indi və gələcək arasında əlaqələndirici rolunu oynayırlar. Prinsiplər tarixi olduqları qədər də müasirdirlər, çünki onlarda əksini tapmış köhnə və yeni öz aralarında minlərlə canlı bağlarla əlaqəli əksliklərdir. Biz strategiya və taktika arasında aralıq mövqe tutan və hərb məharətinin mühüm tərkib hissəsi olan - əməliyyat (hərb) məharəti kursunun öyrənilməsinə başlayırıq.

Əməliyyat məharəti strategiyadan əmələ gəlir və ona tabe olur. Öz növbəsində o, taktikaya nisbətən rəhbər mövqe tutaraq onun tapşırıqlarını və inkişaf istiqamətlərini müəyyən edir. Belə ki, əks əlaqə də mövcuddur. Taktikanın inkişafı, döyüşün aparılmasının yeni üsullarının meydana gəlməsi əməliyyat məharətinə, o isə öz növbəsində strategiyanın inkişafına təsir göstərir. Hərb məharətinin yuxarıda göstərilən tərkib hissələrinin qarşılıqlı əlaqəsinin xarakteri daimi deyil. O, bir sıra amillərdən - silah və hərbi texnikanın inkişafından, qarşıduran tərəflərin qoşunlarının (qüvvələrinin) tərkibi, vəziyyəti və təşkilat-ştat strukturundan, potensial düşmənin hərbi fəaliyyətlərin aparılma üsullarına olan nöqteyi-nəzərindən, müharibə və silahlı münaqişələrin təcrübəsindən, dövlətin hərbi doktrinasının məzmunundan və s. asılıdır.

Bir çox sərkərdələr, hərb nəzəriyyəçiləri, filosoflar, mütəfəkkirlər hərb sənətində prinsiplərin əhəmiyyətini yüksək qiymətləndirirdilər. Onların bir neçə deyimini misal çəkək:

Napoleon: "Hərb sənətinin prinsipləri tarixdə günəş üfüqdə parlayan kimi parlayırlar və bu da onları görə bilməyən korlar üçün daha pisdir" [3, s.59].

Klauzevits: Prinsiplər "fəaliyyət göstərən şəxs üçün əsl dayaq nöqtəsi və yol göstərən ulduzdur" [Клаузевиц, 2015, s.78].

N.Q.Çernışevski: "Kimin ki, prinsipləri tam məntiqi dolğunluğu və ardıcıllığında aydınlaşdırılmayıb, onun yalnız başında dolaşıqlıq deyil, işləri də mənasızdır" [Воробьёв, 2002, s.60].

K.G.Jukov: “Şəxsən mən bütün əməliyyatların hazırlanmasında onları (hərb sənətinin prinsiplərini) əldə rəhbər tuturdum. Eyni zamanda görürdüm ki, bu məsələlərə formal yanaşıldıqda, döyüşdə və əməliyyatda uğur olmurdu” [3, s.58].

F.Foş: “İstənilən başqa sənət kimi, hərb sənətin də öz nəzəriyyəsi, öz prinsipləri var, əks təqdirdə o, sənət olmazdı” [3, s.59].

B.X.Lidel Qart: “Prinsiplərin inkar edilməsi nəzəriyyənin inkar edilməsidir” [3, s.59].

İ.P.Uboreviç: “Prinsipləri bilməyənlərin vay halına” [3, s.59].

Misal çəkdiyimiz deyimlərdən göründüyü kimi, prinsiplər komandirlər, qərargah, xidmətlər, bütün idarəetmə orqanları zabitlərinin idarəetmə fəaliyyətində mühüm rol oynayırlar. Onları tamamilə haqlı olaraq “həyat dərsliyi” adlandırırlar. Onlar döyüş şəraitində gözəgörünməz məsləhətçilər, daimi yol yoldaşı qismində çıxış edirlər. Bu, köhnəlməyən, paslanmayan silahdır, amma kəsən tiyəsi yaradıcılıq olan özünəməxsus silahdır. Prinsiplərdə minlərlə böyük və kiçik, uğurlu və uğursuz döyüşlərin dərsləri, sərkərdələrin axtarışları, düşüncələrinin nəticələri öz əksini tapmışdır.

Prinsiplər döyüş təcrübəsinin özünəməxsus varislik estafeti olub, bir nəsilin digərinə verdiyi öyüd kimi qavranılır. Hərbi işdə gedən dəyişikliklərin qloballığına görə hazırkı dövrün keçmişdə analoqu olmayıb. Keçmiş müharibələrin dərsləri bu gün bir çox hallarda hərb sənətindəki yeni hadisələrin qiymətləndirilməsində çıxış nöqtəsi, meyar ola bilməsələr də, bununla belə döyüş hərəkətlərinin forma və üsullarının inkişafında irəliləyiş pozulmur və deməli, çoxəsrlik hərbi praktikanın işləyib hazırladığı prinsiplər öz dəyərini saxlayır. Onlar keçmiş, indi və gələcək arasında əlaqələndirici rolunu oynayırlar.

Prinsiplər tarixi olduqları qədər də müasirdirlər, çünki onlarda əksini tapmış köhnə və yeni öz aralarında minlərlə canlı bağlarla əlaqəli əksliklərdir.

Hərb sənətinin inkişaf tarixini prinsiplərin inkişaf tarixi kimi nəzərdən keçirmək daha düzgün olar. Onun yaşı min illərlədir. Zaman keçdikcə prinsiplərin məzmunu dəyişir, onların bir qismi aradan çıxır, əvəzində yeniləri yaranırdı. Prinsiplərin formalaşması hər dəfə mürəkkəb və ziddiyyətli dialektik proses olub. O, köhnə ilə yeninin kəskin mübarizəsi şəraitində gedirdi. Prinsiplər insanlar tərəfindən döyüşün təbiətinin, qanunauyğunluqlarının get-gedə daha dərindən dərkinin nəticəsi kimi formalaşdırılırdılar. Bu proses başa çatmayıb, indi də davam etməkdədir. Prinsiplərin yaranma və inkişaf tarixini öyrənəndə keçmişdən faydalı, nəsihətamiz nə varsa, hamısını mənimsəmək lazımdır ki, əvvəlki nəsillərin nailiyyətlərinə söykənib, taktikanın inkişafını inamla davam etdirəsən.

Hazırkı şəraitdə prinsiplər xüsusilə vacibdir, çünki operativ və taktik həllərin, düşünülməmiş addımların, səhvlərin qiyməti xeyli artmışdır, axı bu səhvləri dinamik, sürətlə dəyişən şəraitdə çox vaxt ümumiyyətlə düzəltmək mümkün olmur. Döyüş prinsipləri komandiri idarəetmə fəaliyyətində əqlə, zəkaya deyil (volyuntarizm), əsasən iradəyə üstünlük verən mənəvi cərəyan) və yanlış addımlardan çəkindirməyə ünvanlanıblar. Onlar toplanılmış hərbi təcrübə ilə hesablaşmağa, hərbi işin inkişafındakı tarixi qanunauyğunluqları və tendensiyaları nəzərə almağa vadar edir. Generallar və zabitlər üçün prinsiplər elə oriyentirlərdir ki, onlara müraciət edərək düşməni darmadağın etmək və ya onun hücumunun qarşısını almaq üçün onlar sərəncamda olan qüvvə və vasitələrdən rasional istifadə yollarını tapırlar.Prinsipləri bilmək və onlardan bacarıqla istifadə etmək onlara hərəkətlərində inam və məqsədyönlülük verir. Prinsiplərin tələbləri nə qədər çox nəzərə alınsa, adətən komandirlərin qəbul etdikləri qərarlar da bir o qədər optimal, məqsədəuyğun olar.

Hal hazırda taktika normativlikdən qətiyyən azad olmasa da, o, geniş diapazonda alternativ variantların seçiminə yer qoyur. Bu baxımdan prinsiplər “taktik qaydalar” qismində çıxış edir ki, bunlarsız döyüş şəraitində idarəetmə fəaliyyətində sistemlilik, məntiqlilik qeyri-mümkündür. Amma prinsiplər yaradıcı axtarışları tənzimləyən

məhdudlaşdırıcı rolunda çıxış etməməlidir və çıxış edə bilməz. Onların verilənləri, tövsiyyələri düşünmək, döyüş qarşısında duran məqsədə çatmaq üçün müxtəlif variantlar və yolların seçilməsində ilkin əsas olur. Hegel qeyd etmişdir ki, "sənətin dar qaydalarından yapışan sənətkarların vay halına".

Hərbi sənət ən mürəkkəb və incə sənət növlərindəndir. Təsadüfi deyil ki, hələ qədim dövrün filosofları onu "şahlar elmi" adlandırmışdılar. Bu sənət ilham tələb edir, sxematikliyi, şablonu, ətaləti, doqmatizmi qəbul etmir. Komandir təcrübəsi ilk nəzərdən təkrarolunan görünsə də təkrarolunmazdır. Əlbəttə, zabitin görkəmli sərkərdələrin hərbi sənət prinsiplərindən istifadə sahəsindəki təcrübəsi ilə silahlanıb, onlar tərəfindən sınaqdan keçirilmiş taktik fəndləri (priyomları) addımba - addım həyata keçirərək döyüşü təşkil etməklə taktik kamilliyə çatması daha asan olardı. Döyüş haqqında qərar hər dəfə yaradıcı əzablarla qəbul edilir, onun həyata keçirilməsi isə bir çox maneələrin dəf edilməsi, ziddiyyətlərin aradan qaldırılması ilə bağlıdır. Konkret şəraitdə döyüş prinsiplərinin həyata keçirilməsinin düzgün yolunun tapılması çətin məsələdir. Bu məsələdə hazır reseptlər və asan yollar yoxdur. Bilik və şəxsi təcrübə, intuisiya və dəqiq hesablama, təşkilatçılıq bacarığı və dəmir iradə taktik sənətkarlığın ucaldıldığı bünövrədir.

Metodoloji baxımdan hərb sənətin prinsiplərinin rolu bundadır ki, onlar bütün tərkib hissələrini – strategiya, operativ sənəti və taktikanı - vahid tamda birləşdirən özək, nəzəri "karkas"dır. Onların vasitəsilə generallar və zabitlərin döyüş əməliyyatlarının hazırlanması və aparılmasına baxışlarının ümumiliyi təmin edilir, çünki strategiya, operativ sənət və taktikanın prinsipləri təriflərinin çoxuna və məzmununa görə praktik olaraq eynidirlər, onların fərqi yalnız tətbiqin miqyasındadır.

**3.Döyüşün prinsipləri dünya ordularının döyüş nizamnamələırində**

Fəlsəfi baxımdan prinsiplər özlərində zərurət və azadlığın birləşməsi problemini əks etdirirlər. Komandir döyüş şəraitinin obyektiv amilləri ilə şərtlənən çərçivədən kənara çıxaraq döyüşdə uğur qazana bilməz. Amma o, bu şərtlər çərçivəsində uğur qazana bilər və qazanmalıdır. Burada dialektik ziddiyyət bundadır ki, o eyni zamanda şəraitlərdən həm asılı, həm də azaddır. Şərait öz davranış məntiqini diktə edir, amma bu və ya digər həllin seçiminə yanaşmanı birmənalı müəyyənləşdirmir. Döyüş şəraitində bu və ya digər prinsipin realizə olunmasının həmişə alternativ yolları var, ən əsası budur ki, seçilmiş variant obyektiv şəraitlərlə ziddiyyətə girməsin. Bu linqvistik incəliyi özü üçün aydınlaşdırıb və prinsiplərin tətbiqi üzrə praktik hərəkətləri mənimsənilmiş döyüş qanunauyğunluqlarının tələbləri ilə bir araya gətirməyi öyrənmək taktik sənətkarlığın məğzidir.

Döyüş prinsiplərinin məzmunu taktikanın əldə olunmuş inkişaf səviyyəsini əks etdirir. Onların gücü və həyatiliyi bundadır ki, onlar ikincidərəcəli, az əhəmiyyətli, ötəri şəraitlərə söykənmir, döyüş hərəkətlərinin dərin proseslərini, dayanıqlı qarşılıqlı əlaqələri, obyektiv qanunauyğunluqları ifadə edirlər. Bunları dərk etmək bir növ oriyentir qismində çıxış edir və onları əldə rəhbər tutan komandir döyüş qarşısında qoyulmuş məqsədə çatmağın düzgün yolunu tapır.

Hərb sənətinin prinsipləri bu və ya digər dərəcədə dünyanın bütün ordularının Döyüş nizamnamələrində, tövsiyyələrində və təlimatlarında əks olunur. ABŞ ordusunda buna böyük əhəmiyyət verilir. Amerika Döyüş nizamnamələrində göstərilir ki, bu,"müharibə haqqında həqiqətin bünövrəsidir və bunlardan ağıllı istifadə düşmən üzərində qələbəni təmin edir". ABŞ ordusunun Döyüş nizamnaməsində (FM-100 1982-ci il) hərb sənətin prinsiplərinin sistemləşdirilməsi aşağıdakı qaydada həyata keçirilir: müharibənin ümumi prinsipləri və onların çərçivəsində hava-yer əməliyyatları (döyüşləri) prinsipləri, həmçinin döyüş hərəkətləri növlərinə aid olan prinsiplər formalaşır. Quru qoşunları üçün müharibə prinsiplərinə bunlar aid edilib: məqsədyönlülük, hücum, qüvvə və vasitələrin kütləviliyi,

gözlənilməzlik, sürətlilik, çeviklik və qətiyyətlilik. Hücumun ayrılmaz hissəsi qüvvələrin bir yerə cəmlənməsi prinsipidir [3, s.61].

*Amerika Birləşmiş Ştatının ordusunun döyüş nizamnamələrində müdafiə hərəkətləri prinsiplərinin əsasında hücuma keçən düşməni üstünlükdən məhrum etmək və cəld təşəbbüsü ələ keçirmək ideyası durur.*

*Prinsip №1 belə səslənir: ayrı-ayrı sahələrdə taktik təşəbbüsü, sonra isə müdafiədən hücuma keçdikcə ümumi təşəbbüsü ələ keçir.*

*Prinsip № 2-də deyilir: düşmənin döyüş sıralarının bütün dərinliyi boyunca zərbələr endir - bu onu dayandırmağa və nizamını pozmağa, həmçinin hücuma keçmək üçün şərait yaratmağa imkan verər. Dərin müdafiə cəld və çevik manevri həyata keçirmək üçün vaxt və məkan udmağa imkan verir.*

*Prinsip №3 tələb edir - döyüş şərtlərini düşmənə diktə et, atəşin, manevrin və REM (radioelektron mübarizə) vasitələrinin tətbiqində cəldliyi və çevikliyi gözlə.*

*Prinsip №4 tələb edir - döyüşün gedişində sərəncamında olan bütün qüvvə və vasitələrin hərəkətlərini uzlaşdır, düşmənin hücumunun qarşısını almaq üçün onun ən kiçik zəif cəhətlərindən belə istifadə et* [3, s.62].

*Bundesverin döyüş nizamnamələrində aşağıdakı döyüş hərəkətləri sadalanır:*

- təşəbbüsün ələ keçirilməsi və fəallıq;
- hücumluluq; qüvvə və vasitələrin həlledici yerdə və sərf edən vaxtda cəmlənməsi;
- atəşin həlledici sahədə cəmlənməsi və cəsarətli manevrin edilməsi;
- qarşılıqlı əlaqə;
- gözlənilməzlik; hərəkətlərdə qətiyyət, təkidlilik və təşəbbüskarlıq göstərmək;
- iradəli, dayanıqlı və dəqiq idarəetmə, qoşunların fasiləsiz hərbi və maddi-texniki təminatı.

*İngilis ordusunun döyüş nizamnamələrində döyüşün ən vacib prinsipləri aşağıdakılar hesab olunur:*

- hücum döyüş hərəkətləri;
- qarşılıqlı əlaqə;
- hərəkət azadlığı;
- qüvvə toplanılması;
- gücə qənaət;
- gözlənilməzlik;
- birbaşa olmayan hərəkətlər (aldadıcı fəndlər);
- qoşunların döyüş təminatı;
- sağlam mənəvi ruhun dəstəklənməsi;
- qoşunun və arxa cəbhənin idarə olunması.

*Rusiya Federasiyasının Silahlı qüvvələrində Döyüş nizamnamələrində əks olunmuş prinsiplərin strukturu aşağıda göstərilən qaydadadır.*

- döyüşün aparılmasında qətiyyət, fəallıq və ara verməmək;
- qoşun növləri və xüsusi qoşunların tətbiqində razılaşdırılmalar və onların arasında qarşılıqlı əlaqənin saxlanılması;
- hərəkətlərin gözlənilməzliyi və hərbi hiyləgərliyin tətbiqi (düşmənin aldadılması);
- əsas istiqamətdə və həlledici anda səylərin qətiyyətlə cəmlənməsi;
- hərbi bölmələr, zərbələr və atəşlə manevr;
- bölmələrin döyüş qabiliyyətinin vaxtında bərpa edilməsi, döyüşün hərtərəfli təmin edilməsi;
- döyüş tapşırığının yerinə yetirilməsində mənəvi və fiziki qüvvələrin tam gərginliyi, mənəvi-psixoloji amildən istifadə;
- hərbi hissələrin ciddi və ardıcıl idarə edilməsi [3, s.62].

Qeyd edək ki, son vaxtlar Rusiya ordusunda döyüş prinsiplərinə bunu da aid edirlər: “hərbi hissələrin və bölmələrin tapşırıqlarının onların döyüş imkanlarına müvafiqliyi”.

Qeyd olunur ki, bu qiymətləndirmə prinsipi;

– şəraitin dəqiq qiymətləndirilməsini;
– döyüş düzülüşünün ən rasional yerləşdirilməsinin seçimini;
– düşmənin hərəkətlərinin xarakteri nəzərə alınmaqla döyüş tapşırığının yerinə yetirilməsinin optimal üsullarının müəyyənləşdirilməsini;
– qüvvələr və vasitələrin keyfiyyət vəziyyətinin, həmçinin qoşunun hərbi hazırlıq dərəcəsi, komandirlər və ştabların hazırlığının nəzərə alınmasını;
– şəxsi heyətin daima döyüşə hazırlığının olmasını tələb edir.

**4.Döyüş prinsiplərinin hərb məharətinin (taktikanın) inkişafında əhəmiyyəti**

Döyüş prinsiplərinin məzmunu haqqında danışanda hərbi nəzəriyyəçilər və praktiklər həmişə onların başa düşülməsinin sadəliyini və anlaşıqlı olmasını vurğulayırlar. Klauzeviç “Müharibə haqqında” əsərində yazırdı: “Hərb sənətinin prinsipləri özü-özlüyündə ən yüksək dərəcədə sadə olub, sağlam düşüncəylə bir araya gəlir” [Клаузевиц, 2015, s.83].

Qeyd edək ki, döyüş prinsiplərinin hazırda formalaşmış təsnifatı nəsə dəyişilməz bir şey, hərbi fikrin “zirvəsi” deyil, bu yalnız taktikanın inkişafında növbəti mərhələdir. Prinsipləri yeni təcrübə ilə zənginləşdirmək, onların tələblərinin komandir və ştabın idarəetmə fəaliyyətinin bütün sahələrində elektronika, robototexnika, kompüterlər kimi yeni silahlı mübarizə vasitələrinin tətbiq olunduğu şəraitdə müasir, həcmli, çoxölçülü yerüstü-hava döyüşünün dəyişmiş şərtləri nəzərə alınmaqla praktikada həyata keçirilməsinin daha səmərəli yollarını axtarmaq lazımdır.

Döyüş prinsipləri hərbi nəzəriyyə və praktika üçün ikili əhəmiyyət kəsb edir: bir tərəfdən elmi biliklərin sistemləşdirilməsi və taktikanın inkişafının müvafiq səviyyəsini əks etdirən nəzəriyyənin məntiqi qurulması üçün zəmin olur, digər tərəfdən isə bunlar yol göstərən mayaklar, rəhbər tövsiyələrdir ki, onları əldə rəhbər tutan komandir mürəkkəb döyüş şəraitində qarşıya qoyulmuş məqsədə çatmaq üçün düzgün yolu tapır. Obrazlı şəkildə desək, bu, qələbənin oriyentirləridir.

Əvvəlcə belə bir suala cavab verməyə çalışaq - hərb sənətinin prinsiplərini bilmədən hərbi bölmələri idarə etmək və döyüşdə uğur qazanmaq olarmı? Belə cavab verək - ümumiyyətlə hansısa ayrılıqda götürülmüş, sadələşdirilmiş şəraitdə belə hallar istisna olunmur. İkinci dünya müharibəsinin təcrübəsinə müraciət etsək, əlbəttə, taktik bölmələrin komandirlərinin heç də hamısı praktik fəaliyyətdə müvafiq prinsipləri düşünülmüş şəkildə tətbiq etmək üçün yüksək erudisiyaya, kifayət qədər nəzəri hazırlığa malik olmayıb. Demək olar ki, onların çoxu intuitiv şəkildə, əldə olunmuş təcrübə və nizamnamə müddəalarını bilmək zəminində qələbə çalmaq kimi çətin elmə yiyələnirdilər.

Prinsipləri bilmədən döyüşü hazırlayan zabiti açıq çöldə və ya sıx meşədə olub, lazımi məntəqəyə xəritəsiz, kompassız yol tapmaq istəyən yolçu ilə müqayisə etmək olar. Tamamilə aydındır ki, o çox dolaşmalı olacaq. Amma yolçuya bu vaxt və güc itkisi bahasına başa gələcəksə, komandir üçün insanlar itkisi və hətta ola bilsin ki, döyüşün uduzulması ilə nəticələnəcək. Bu baş verməsin deyə əvvəlcədən nəzəri və praktik baxımdan “yaraqlanmaq” - müasir döyüşün təbiətini yaxşı öyrənmək, onun prinsiplərini bilmək və onları praktikada bacarıqla tətbiq etməyi öyrənmək - lazımdır. Onlar sanki gözəgörünməz “məsləhətçilər” kimi çətin məqamda nə etmək, mürəkkəb vəziyyətdən necə çıxmaq, dara düşməmək, səhvə yol verməmək üçün nə etmək lazım olduğunu deyirlər. Bu məsləhətçilərin arxasında bir çox nəsillərin təcrübəsinin müdrikliyi dayanır və onlara tamamilə etibar etmək olar.

Ümumqoşun döyüşünün prinsipləri - döyüşün hazırlanması və aparılması üzrə əsas müddəalar, elmi cəhətdən əsaslandırılmış və praktikada yoxlanmış ən mühüm tövsiyələrdir.

Onlar taktiki miqyasda döyüş fəaliyyətlərinin obyektiv mövcud olan qanunauyğunluqlarının praktiki olaraq tətbiqi yollarını ifadə edirlər.

Ümumqoşun döyüşünün prinsipləri nizamnamələrdə, təlimatlarda və digər rəhbəredici sənədlərdə əks etdirilir. Döyüşün aparılması prinsiplərini bilmək komandirlərə və qərargahlara praktiki fəaliyyətlərində köməklik göstərir, qoşunlarla idarəetmədə məntiqə uyğun təşəbbüsü və yaradıcılığı göstərməyə imkan yaradır.

*Yuxarıda sadalananları nəzərə alsaq, müasir ümumqoşun döyüşünün əsas prinsiplərini aşağıdakı kimi sıralamaq olardı:*

- birləşmələrin, hissələrin və bölmələrin daim yüksək döyüşə hazırolmaları;
- döyüşün aparılmasının yüksək fəallığı, qətiyyətliliyi və fasiləsizliyi;
- fəaliyyətlərin qəfilliyi;
- döyüşdə qoşun növlərinin uzlaşdırılmış tətbiqi və onlar arasında fasiləsiz qarşılıqlı fəaliyyətin saxlanması;
- qoşunların səylərini əsas istiqamətdə və vaxtında qətiyyətlə cəmləşdirilməsi;
- hissələrin, bölmələrin və atəşin manevri;
- qoyulmuş tapşırıqların yerinə yetirilməsi marağında mənəvi-siyasi və psixoloji faktorları hərtərəfli nəzərə alınması və istifadə edilməsi;
- döyüşün hərtərəfli təminatı;
- qoşunların döyüş qabiliyyətini saxlanması və vaxtında bərpa edilməsi;
- qoşunların qətiyyətlə və fasiləsiz idarə edilməsi, qarşıya qoyulmuş məqsədlərin əldə edilməsində, qəbul edilmiş qərarların və qoyulmuş tapşırıqların yerinə yetirilməsində sarsılmazlıq [Воробьёв, 2002, s.33].

Beləliklə, söhbət qoşunlara silahlı mübarizənin qanunlarını, qanunauyğunluqlarını bilməyə söykənən rəhbərlik sənətindən gedir ki, bu qanun və qanunauyğunluqlardan da məntiqi olaraq hərb sənətinin prinsipləri irəli gəlir. Müharibə qanunlarının işləmə mexanizminə nüfuz etmək bu qanunların yarandığı və işlədiyi şəraitlərə lazımi istiqamətdə təsir etməyin ən səmərəli metod və üsullarını aşkarlamağa, yaranan şəraitdə səhvsiz qərarların qəbul edilməsi və həyata keçirilməsi üçün maksimum imkanları tapmağa kömək edir.

Qanunlar obyektiv kateqoriyadır. Onlar insanın iradəsindən və istəyindən, yəni bunun komandirə lazım olub-olmamasından, qanunların işləməsinin onun xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq işləyirlər. O özü üçün bu və ya digər qanunları seçə bilməz, o onlarla hesablaşmalıdır. Qanunlara əsaslanan prinsiplər isə, əksinə, insan tərəfindən konkret şəraitin şərtlərindən asılı olaraq şüurlu şəkildə tətbiq olunurlar. Onlarda qələbə çalmaq üçün nə etmək, necə hərəkət etmək lazım olduğu barədə tövsiyələr var. Prinsiplərdə həm müharibə qanunlarının işləməsinin zəruri xarakteri, həm də bu zərurət çərçivəsində insanların şüurlu fəaliyyəti üçün nisbi azadlıq uğurla birləşir.

Prinsiplərin tərifində yalnız qanunların tələbləri deyil, həm də döyüş fəaliyyətinin tabe olduğu məqsəd və vəzifələr öz ifadəsini tapır. Müharibə qanunları və döyüş sənəti prinsiplərinin qarşılıqlı əlaqəsini vətəndaş müharibəsinin görkəmli sərkərdəsi S.İ.Qusev çox yaxşı ifadə etmişdir. O yazırdı: "O şey ki, "nəzərdən keçirəndə" qanundur, fəaliyyətdə qayda olur. Elmdə qanun olan sənətdə qaydadır" [3, s.67].

Döyüşün xarakterini, obyektiv qanunlarını, qanunauyğunluqlarını bilmək komandirə baş verən hadisələrin mənasını dərindən başa düşməyə, döyüşün hazırlandığı və aparıldığı şəraiti düzgün başa düşməyə və qiymətləndirməyə imkan verir. Onun qəbul etdiyi qərarlar və qoşunu idarə etməklə bağlı hərəkətlərinin hamısının məqsədəuyğunluğu xeyli dərəcədə bundan asılıdır. Amma bu müddəanı komandirin konkret döyüş şəraitini öyrənəndə mütləq onların faydalı təsirini gücləndirmək və ya zərərli təsirini azaltmaq üçün qanunauyğunluqlar axtarmalı olması kimi başa düşmək səhv olardı. Əməliyyat, döyüş və onların prosesləri

konkret təzahürlərində, xüsusiyyət və münasibətlərində sonsuzdurlar. Ayrıca götürülmüş bir hadisə əsasında onların təbiətini dərindən dərk edib, qanunauyğunluqlarını açmaq mümkün deyil. Bu, ən müxtəlif şəraitlərdə baş vermiş çoxsaylı döyüşlərin ümumiləşdirilməsi nəticəsində mümkündür ki, bunun öhdəsindən isə hərbi nəzəriyyə gələ bilər. Onun qarşısında duran məsələ də məhz döyüş təcrübəsini təhlil edərək təsadüfi, artıq hər şeyi atıb qanunauyğun, tez-tez təkrarlananı tapmaq və bu zəmində qoşunlara rəhbərlik zamanı praktik fəaliyyət üçün yararlı tövsiyələr, prinsiplər işləyib hazırlamaqdan ibarətdir.

Hərb sənəti prinsiplərinin dəyəri bundadır ki, onların vasitəsilə zabitin idarəetmə fəaliyyətində obyektiv və subyektivin dialektik vəhdəti əldə olunur. Onlar nəzəriyyə ilə praktika arasında əlaqələndirici həlqə olub, hərbi elmin nəzəri müddəalarının məzmununu döyüş praktikasının dilinə çevirir.

Prinsiplər yalnız yaranmış vəziyyəti obyektiv qiymətləndirməyi deyil, həm də öz qoşunlarının hərəkətləri üçün yaxşı şərait yaratmaq və düşmənin hərəkətlərini çətinləşdirmək məqsədilə onu lazımi istiqamətdə dəyişmək üçün zəruri tədbirləri həyata keçirməyi tələb edir. Prinsiplər özü-özlüyündə passiv olub, uğur gətirmirlər. onlar eyni dərəcədə həm qələbənin, həm də məğlubiyyətin prinsipləridir. Hər şey bu və ya digər tərəfin onlardan irəli gələn tələblərdən praktikada nə qədər bacarıqla, və ya əksinə, bacarıqsız istifadə edilməsindən asılıdır.

Prinsipləri bilmək döyüşü təşkil edən və ona rəhbərlik edən komandirin işini asanlaşdırır. Döyüş hərəkətlərinin qanunları və qanunauyğunluqları və onlardan irəli gələn prinsiplərin mürəkkəb qarşılıqlı əlaqə sistemini dərindən anlamaq hərbi işdə elmi ön görüm üçün etibarlı zəmin olub, həm hadisələrin əsas inkişaf tendensiyalarını, həm də qoşunlara rəhbərlik üzrə bu və ya digər tədbirlərin nəticələrini əvvəldən görməyə imkan verir. Bir sözlə, prinsiplər zabitlərin döyüş sənətkarlığının əsası qismində çıxış edir.

Aydındır ki, prinsipləri bilmək konkret şəraitdə onları tətbiq edə bilmək bacarığı olmadan özü-özlüyündə bir şey vermir. Yaxşı oriyentir olsalar da, prinsiplə yaranmış vəziyyətdə hansı addımı atmaq sualına cavab verə bilməzlər. Prinsiplər qərarın özü deyil, onu qəbul etmək üçün çıxış nöqtəsi, “yoldur”. Onlar zabitin praktik fəaliyyətinin ümumi istiqamətini göstərir, amma döyüşün qarşısında duran məqsədə çatmağın konkret yollarını göstərmirlər.

Prinsiplər özlərində nəzəri müddəaları əks etdirirlər və onların gücü praktika ilə birləşməkdədir.

A.A.Neznamovun qeyd etdiyi kimi, “Nəzəriyyə bütün hallarda ən yaxşı hərəkət üsulunu göstərmək məqsədi güdə bilməz. Müharibədə şərait elə rəngarəngdir və elə tez dəyişir ki, hər yerdə və həmişə yararlı üsulların müəyyənləşdirilməsi cəhdləri əvvəlcədən uğursuzluğa məhkumdur” [2, s.48].

Q.A. Leyer prinsiplərə tətbiqən demişdir: “Prinsiplər yalnız məqsədi göstərirlər, buna görə də yaradıcılığın tənzimləyicisi, onu düzgün qərarların qəbul edilməsinə yönəldən qüvvədirlər, amma onun əvəzləyicisi deyillər” [Воробьёв, 2002, s.67].

Prinsipləri bilməkdən onların tələblərini həyata keçirməyə qədər çox böyük bir məsafə var. Bu məsafə heç də asan qət edilmir. İkinci dünya müharibəsinin təcrübəsinə müraciət edək. Qızıl Ordunun bütün Döyüş və Səhra nizamnamələrində bacarıqla qarşılıqlı əlaqədə olmağın, idarəetmənin, qüvvələrin həlledici istiqamətlərdə cəmləşdirilməsinin döyüş və arxa təminatının vacibliyi vurğulanırdı. Bizim peşəkar zabitlərimizin əksəriyyəti bu müddəaları nəzəri cəhətdən mənimsəmişdi. Bununla belə, zabitlərin döyüş əməliyyatlarının aparılmasında hərb sənətin özü-özlüyündə mürəkkəb olmayan tələblərini praktikada həyata keçirməyi öyrənməsi üçün böyük hərbi sınaqlardan keçmək, yüzlərlə, minlərlə döyüş aparmaq lazım gəldi.

Məsələ burasındadır ki, döyüş şəraiti hədsiz dəyişkən, çoxcəhətli, ziddiyyətlidir. Onda həmişə vacib olan vacib olmayanla, qanunauyğun təsadüfi ilə, köhnə yeni ilə vəhdətdədir. Əgər fəaliyyətin başqa növlərində insan qarşıda duran məsələni həll etməyə kömək edən şəraitləri çox vaxt özü yaradırsa, döyüşdə uğur qazanmaq üçün şəraiti təmin etmək üçün hər dəfə düşmənin müqavimətini dəf etmək, yəni bir çox maneələrdən keçmək lazım gəlir.

Döyüş zahirən güc tətbiq etməklə mübarizə aparmaqda, atəşin gücü, manevrin sürəti, zərbələrin endirilməsi cəldliyində yarışmadır. Lakin bu zahiri təzahürlər arxasında intellektlərin, komandirlərin ağlının gərgin qarşıdurması, şəxsi heyətin döyüş hazırlığında yarışması, onun mənəvi-psixoloji mətinliyi, fiziki dözümlülüyü, bacarığı dayanır. Bütün digər şərtlərin eyniliyi şəraitində xoş amillərdən səmərəli istifadə etməyi və mənfi amilləri neytrallaşdırmağı bacaran zabitin uğur qazanmaq şansı daha çoxdur.

Döyüş sənəti prinsiplərini əldə rəhbər tutaraq qoşunları idarə etmək bu deməkdir: birincisi, qoşunların qarşısında duran məqsəd və vəzifələri yaranmış şəraitlə, onların döyüş imkanları ilə tutuşdurmaq lazımdır; ikincisi, subyektivliyə, düşməni və öz qoşunlarını az qiymətləndirməyə və ya həddindən artıq qiymətləndirməyə yol verməmək; üçüncüsü, döyüşü planlaşdırmaq, qarşılıqlı əlaqəni, onun hərtərəfli təminatını kor-koranə deyil, dərin proqnozlaşdırma, hesablama, uzaqgörənlik əsasında təşkil etmək; dördüncüsü, obyektiv şəraitlərə, döyüşün təbiətini, inkişaf tendensiyalarını bilməyə söykənmək.

Sadalanmış tələblərə mexaniki deyil, şəraitdən ciddi çıxış edərək yaradıcı əməl olunur. Komandir arzu olunan məqsədlərin heç də həmişə qoşunların döyüş imkanlarına müvafiq olmaması ilə hesablaşmaya bilməz. İşlərin vəziyyəti həqiqətdə çox vaxt şərait haqqında əldə olunmuş məlumatlardakından tamamilə fərqli ola bilir. Bu və bir sıra başqa çətinlikləri uğurla aradan qaldıraraq optimal qərar qəbul edib, onun həyata keçirilməsinə yalnız steriotiplərlə düşünməyən zabit, cəsarətli novator, axtaran, iradəli təşkilatçı nail ola bilər.

Hazırda bu xüsusilə vacibdir. Hərbi iş heç vaxt indiki kimi intensiv inkişaf etməmişdi və bu da zabitlər üçün həm taktika nəzəriyyəsində, həm də qoşunların idarə edilməsi üzrə praktik fəaliyyətdə, qərarların qəbul edilməsində, döyüş prinsiplərinin novatorçu tətbiqində geniş imkanlar açır. Məsələ bundadır ki, hazırkı dövrdə qoşunların maddi-texniki bazasının yenilənmə tempi hədsiz dərəcədə sürətlənmişdir. Özü də taktika, hərb sənətinin hazırkı dövrdə ən dinamik sahəsi kimi, silah və döyüş texnikasının dəyişməsindəki prosesləri birbaşa əks etdirdiyindən, zabit heyəti qarşısında belə bir məsələ durur: hərbi işdə baş verən yeni hadisələri maksimum mobilliklə dərk etmək və qoşunların silahlı mübarizə üsullarının daha yüksək inkişaf səviyyəsinə cavab verən daha səmərəli hazırlıq və döyüşü aparmaq üsullarına praktik yiyələnmək üçün zəruri tövsiyələr işləyib hazırlamaq.

Tarixə müraciət edərək görmək olar ki, dünya ordularının çoxunun əsas səhvi onların çox vaxt "keçmiş müharibəyə" hazırlaşmasındadır, yəni onların gələcək əməliyyat və döyüşlərin konturlarını kifayət qədər dəqiqliklə müəyyənləşdirə bilməyib, ətalətlə özünü artıq çoxdan doğrultmayan döyüş hərəkətlərini mənimsəməkdə davam etməsindədir. Vaxtı ilə "Strategiya hərbi klassiklərin əsərlərində"nin redaktoru A.A.Sveçin fransız hərbi nəzəriyyəçisi Foşun "Müharibə prinsipləri haqqında" əsərindən danışanda haqlı olaraq qeyd etmişdir ki, "onda əsl, lakin dünya müharibəsinin açıqladığı gerçəkliyə tamamilə müvafiq olmayan hərbi sistem əks olunmuşdu". Qeyd etmək lazımdır ki, həm birinci, həm də ikinci dünya müharibələri, eləcədə bu günə qədər davam etməkdə olan Rusiya-Ukrayna, İsrail-Fələstin (Həmas) münaqişələri bütün səviyyələrdə - strateji, operativ və taktiki - çoxlu iri və xırda səhvlərə yol vermişlər.

Demək olar ki, hələ Birinci Qarabağ müharibəsindən sonra gənc kadrların tamamilə yeni tədris sisteminə keçdiyini, döyüş hazırlığında durğunluq (1994-cü il may cəbhədə atəşkəsdən sonra ) dövrünün atributlarından tamamilə azad olduğunu söyləmək olmaz. Bunu aşağıdakılardan görmək olar: bölmələrdə keçirilən taktik təlimlərin gedişində hərdən

sadələşdirilmiş yerüstü-hava və radioelektron şərait yaradılır, dərinlikdəki obyektlər düşmənin atəşinin təsirindən kənarda qalır, döyüşün dinamikasında müəyyən metodizm, qoşunların məntəqədən məntəqəyə xətti irəliləməsi təzahür edir, birbaşa qarşı tərəfdən zərbələr endirilir, hərbi əməliyyatlar prosesində tərəflərin xeyli uzunmüddətli və passiv qarşıdurmasına yol verilir. Aydındır ki, bunlar zabitlərdə fəal yaradıcı axtarışların aşılanmasına kömək etmir, onları güclü rəqiblə mübarizəyə səfərbər etmir, lazımi təşkilatçı və iradə keyfiyyətlərinin aşılanmasına rəvac vermir. Bax buna görə gənc zabitlərin çoxu çətin taktik məsələlərin müstəqil işlənilməsinə sərbəst olaraq çevik qərarqəbuletmə bacarığını ortaya qoya bilmir, verilən tapşırığa ürəksiz girişir, çox vaxt göstərişlə hərəkət edirdilər. 44 günlük Vətən müharibəsində də, bunun canlı şahidi olduq. Bəzən komandir heyəti döyüşün gedişində durduğu yeri belə təyin etməyi bacarmırdı. Onun tabeliyinə verilən bölmələri idarə edə bilməməsi, qonşu bölmələrlə qarşılıqlı əlaqənin yaradılmaması ağır nəticələrə səbəb olurdu. Əlbətdə bu barədə çox danışmaq olar.

Zabitlərin yaradıcı düşüncəsində qətiyyətli dönüş yaradılması, köhnə metodlarla döyüş hazırlığında yeni məsələlərin həllinin qeyri-mümkünlüyü faktının aydın dərki hazırda həmişəkindən çox vacibdir. Son vaxtlar ümumqoşun döyüş prinsiplərinin mütləq çoxluğunun tərifi, taktika nəzəriyyəsinin yenilənməsinə baxmayaraq, dəyişikliklərə uğramayıb, amma onların daxili məzmunu, ən əsası isə, onların praktik realizə yolları və üsulları əvvəlki kimi qala bilməz. Döyüş hazırlığında köhnə qaydada, nə vaxtsa müəyyənləşmiş kanonlar üzrə hərəkət etməkdən məhvedici heç nə yoxdur [5].

Döyüş prinsiplərinin məzmununda, onların tətbiqi üsullarında baş verən dəyişiklikləri dərindən dərk etmədən, hərbi kadrların yaradıcı, novatorçu keyfiyyətlərinin inkişaf etdirilməsi dövrün təkidli tələbidir. Təcrübə göstərir ki, əgər zabit taktik çeviklikdən məhrumdursa, sxematikliyə meyillidirsə, o əksər hallarda döyüş prinsiplərini səmərəli tətbiq edə bilmir. Onun taktiki fəndlər (priyomlar) ehtiyatı olduqca kasaddır, səhvləri, təəssüfə layiq təsadüflər isə çoxdur. Əksinə, fəal, novatorçu düşünən zabit sanki öz qoşunlarının döyüş imkanlarını ikiqat, üçqat artırır, uğur şansını çoxaldır. Köhnəlik tərəfdarı doqmatik yanaşmalar buxovundan qurtara bilməz. Liddel Qart yazırdı "Yazılı qaydaları hər şeydən üstün bilən və düzxətli hərəkət edən ortabab generaldan qeyri-düzxətli hərəkətlər gözləmək mənasızdır".

II Qarabağ müharıbəsi zamanı işğal altında olan Dağlıq Qarabağda aparılan döyüşlərin ssenarisi hazırlanarkən belə Baş Qərargah ən kiçik detalları belə unutmamışdır. Tarix göstərir ki, hərbi nəzəriyyəçilər və praktiklər məqsədyönlü döyüş hərəkətləri üsullarının hazırlanması məsələlərində heç də həmişə zamanı qabaqlaya bilməmişlər. Hərdən olurdu ki, qoşunlar (birlik, birləşmələr) əslində gələcək müharibəyə deyil, keçmiş müharibəyə hazırlaşır, köhnəlmiş, geridə qalmış döyüş hərəkətləri üsullarını mənimsəyirdi. Başqa hallarda hərbi nəzəriyyə tərəfindən lokal müharibələrin təcrübəsi ya ifrat qiymətləndirilir, ya da yetərincə qiymətləndirilmir və onların əsasında döyüş hazırlığına aid səhv, birtərəfli nəticələr çıxarılırdı. Yeni silah növünün taktikaya təsiri heç də həmişə tam və hərtərəfli nəzərə alınmırdı, düşmənin müharibənin başlanılması və aparılmasında real döyüş imkanları və mümkün döyüş üsullarının qiymətləndirilməsində səhvlərə yol verilirdi. Biz Milli Müdafiə Universitetinin professor-müəllim heyəti hal-hazırda dinləyicilərə məşğələlərdə yeni silah növünün taktikaya təsiri, real döyüş imkanları və mümkün döyüş üsullarının qiymətləndirilməsində öz tövsiyyələrimizi çatdırırıq. Bunun bariz nümunəsi olaraq İkinci Qarabağ müharibəsi zamanı komandir heyətinin cevik qərarqəbuletməsini göstərmək olar. Beləliklə, 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublika sının Silahlı Qüvvələri əsas gücünü əks-hücum əməliyyatına səfərbər etdi. Əməliyyatın ilk hədəfi Ermənistan ordusuna məxsus hava hücumundan müdafiə (HHM) sistemlərini sıradan çıxarmaq idi. Çünki həmin sistemlər Azərbaycana məxsus PUA-ların aşkar edilib

vurulmasında mühüm rol oynayırdı. ABŞ-ın Azərbaycan Respublikasındakı keçmiş səfiri Metyu Brayzanın qeyd etdiyi kimi, "düşmənin uzunmüddətli müdafiə sistemində HHM sistemlərini dron və ya raket vasitəsilə sıradan çıxarmaq asan iş deyildi. Bu baxımdan, Azərbaycan tərəfi bu vəziyyətdən çıxmaq üçün çox yüksək bacarıq nümayiş etdirdi" [Piriyev et al., 2022, s.27]. Əməliyyatdan öncə düşmənin kifayət qədər güclü və dayanıqlı HHM sistemi mövcud idi. Düşmənin ön xətdə HHM sistemini, xüsusilə, modernizə edilmiş "OSA" və ən yeni "Tor-M2k" zenit-raket kompleksləri təşkil edirdi. Düşmən tam əmin idi ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiyası (Hücumçu Aviasiya, Qırıcı Aviasiya və Ordu Aviasiyası) sovet dönəmində olan taktika ilə tətbiq ediləcək, aşağı və ən aşağı hündürlüklərdə fəaliyyət göstərəcək, HHM atəş zonasına daxil olarkən məhv ediləcək. Həmin taktika tətbiq olunsaydı müharibənin ikinci günündə aviasiya böyük itkilərə məruz qalardı [8].

Beləliklə, işğalçı ölkə müharibənin reallaşması üçün demək olar ki, "əlindən gələn hər şeyi edirdi. Nəhayət, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri növbəti dəfə təxribat törədərək bütün cəbhəboyu hücum əməliyyatlarına başladı. Lakin Azərbaycan Silahlı Qüvvələrinin uğurla həyata keçirdiyi əks-hücum ("Dəmir Yumruq") əməliyyatı onların yeni ərazi işğal etmək arzusunu ürəklərində qoydu. Azərbaycan rəhbərliyi davamlı olaraq Ermənistan hökumətinə niyyətlərindən çəkinmək barədə xəbərdarlıq etmişdi. Lakin erməni xisləti Paşinyan hakimiyyətinin bu xəbərdarlıqlardan nəticə çıxarmasına imkan vermədi [4 Piriyev et al., 2022 s.28]. Yəni, artıq oktyabr ayının əvvəllərində müharibəni dayandırmaq üçün haray salan Ermənistanın bunun üçün boşuna şikayətlənməkdən başqa heç bir tutarlı səbəbi yox idi. Nəticə etibarilə Ermənistan hakimiyyəti şansını həm danışıqlar masasında, həm də döyüş meydanında itirmişdi. Qısaca, Paşinyan hakimiyyəti öz milliyyətçi ritorikasının əsirinə çevrilmişdi. Müharibənin siyasi xarakteri bəzi mənbələrdə kompleks təqdim edilsə də, əslində Azərbaycan Silahlı Qüvvələrinin "Dəmir Yumruq" əks-hücum əməliyyatının sadə və aydın bir məqsədi var idi: Ermənistan ordusunu işğal olunmuş Azərbaycan torpaqlarından çıxarmaq və bir milyona yaxın məcburi köçkünün öz doğma yurdlarına qayıtmasını təmin etmək.

Bu baxımdan İkinci Qarabağ müharibəsi Xorvatiyanın 1995-ci ilin avqust ayında reallaşdırdığı "Fırtına" əməliyyatı ilə eyni xarakter daşıyır. "Fırtına" əməliyyatında Xorvatiya Ordusu Serbskaya Krayina separatçı rejimini darmadağın edərək ölkənin ərazi bütövlüyünü bərpa etmişdi. Serbskaya Krayina, Xorvatiyanın beynəlxalq sərhədləri daxilində formalaşmış, əsasən serblərdən ibarət qondarma dövlət idi. Ərazisi Xorvatiyanın ümumi ərazisinin 18,4%-ni təşkil edirdi. Lakin İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun yalnız Qarabağdakı separatçı rejimə qarşı deyil, Ermənistan ordusuna qarşı apardığı bir müharibə idi. Onu da qeyd etmək lazımdır ki, bu müharibədə Ermənistan da tək deyildi, xarici havadarları bu ölkəni açıq (siyasi bəyanatlarla) və gizli (silah tədarük etməklə) şəkildə dəstəkləyirdi. Erməni xalqı ümid edirdi ki, Rusiya dərhal müdaxilə edəcək və onlar bu dəfə də canlarını qurtaracaqlar. Lakin Rusiyanın müharibəyə açıq müdaxiləsi olmadı və bu da Ermənistan hakimiyyəti və xalqının, eləcə də Rusiyada yaşayan ermənilərin, əsasən də oliqarxların ümidini boşa çıxardı [Piriyev et al., 2022, s.29].

İndiki dövrdə gələcək müharibənin şərtləri və xarakterini proqnozlaşdırmaq birinci növbədə ona görə hədsiz dərəcədə çətinləşmişdir ki, silahlı mübarizə vasitələrinin, qoşunların texniki təminatının yüksək sürətlə yenilənməsi baş verir və bu da döyüş taktikasında əsaslı dəyişikliklərin edilməsinə səbəb olur. Məlumdur ki, indiki şəraitdə bir insan nəslinin ömrü müddətində texnikanın 3-4 nəsli dəyişir. Son zamanlar lokal müharibələrin tarixinin göstərdiyi kimi, bundan çıxış edərək ilk əməliyyatlarda döyüş hərəkətləri üçün səciyyəvi hücum edən tərəfin ən yeni, düşmənə məlum olmayan silah

sistemləri və döyüş texnikasının (PUA) kütləvi tətbiqi, həmçinin gözlənilməz taktik fəndlərin tətbiqi oldu [2, s.46].

Deyilənləri ümumiləşdirərək, bunları qeyd edək olar:

1. Döyüş prinsipləri taktikanın onurğa sütunu (nəzəri karkası), onun əsas (baza) elmi bünövrəsidir, bu, nəzəriyyəçilərin ağlının ixtiyari konstruksiyaları deyil, çoxəsrlik hərbi praktikanın məhsulu, bir çox nəsillərin hərbi müdrikliyinin cövhəridir. Müharibələrin uzunmüddətli tarixi təcrübəsinin hamısı göstərir ki, praktikanı daha düzgün yola yönəldən rəhbər taktik qaydalar – döyüş prinsipləri və onların tənzimləyici rolu olmasa, qoşunların döyüşdə idarə edilməsində komandirin, qərargah zabitinin heç bir rasional praktik fəaliyyətini təsəvvür belə etmək mümkün deyil.

2. Hərbi sənət prinsiplərinin dönməz təsiri, həyatiliyi ondadır ki, onlar silahlı mübarizənin təbiəti və xarakterini, qanunauyğunluqlarını obyektiv əks etdirir və buna görə də komandirlərə, qərargahlara ən mürəkkəb şəraitlərdən baş çıxartmağa, silah və döyüş texnikasının tətbiqinin ən səmərəli üsullarını tapmağa, sənətkarlıqla rəqibin darmadağın olmasına nail olmağa imkan verir.

3. Əgər zabit konkret şəraitdən çıxış edərək döyüş prinsiplərinin tələblərini həyata keçirir və bununla da onların güclü yaradıcı potensialından istifadə edirsə, döyüş prinsiplərini bilmək maddi qüvvəyə çevrilir.

4. Döyüş prinsiplərinin tələblərinin praktikada həyata keçirilməsi mürəkkəb, təkrarolunmaz yollarla baş verir. Bu həmişə çoxlu məchulu olan çətin məsələnin həllidir. Döyüş nə qədər mürəkkəb, düşmən və onun silahı nə qədər güclü olsa, taktik düşüncənin çevikliyinə tələb bir o qədər çox olur, zabitin məqsədə çatmağın effektiv yollarının seçiminə hər dəfə yeni səpkidən yanaşmaq bacarığı bir o qədər yüksək olmalıdır.

5. Prinsiplərin əhəmiyyəti bundadır ki, onlar heç cür təşəbbüsə mane olmur, zabitin düşüncəsini ehkamlaşdırmır, əksinə, konkret praktik məsələnin həllində ona müəyyən seçim azadlığı verirlər. Prinsiplərin tələblərinin yaradıcı həyata keçirilməsi üçün axtarış mobilliyinə, fikir cəsarətinə, cürətli riskə, real hesablamalara, elmi bünövrəyə söykənmək lazımdır.

6. Döyüş prinsiplərinin hər biri ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqədə realizə olunur. Prinsiplərin hər biri ümumi zəncirin ayrılıqda götürülmüş həlqəsidir. Döyüşdə uğur qazanmaq üçün taktikanın bütün elmi arsenalından, onun əsas prinsiplərin dən bacarıqla istifadə tələb olunur.

7. Hərb sənətinin bütün tərkib hissələri – strategiya, əməliyyat sənəti, taktika – əsasən birgə olan prinsipləri döyüş hərəkətlərinə hazırlıq və onların aparılma üsullarına bütün səviyyələrdən olan hərbi kadrların baxışlarının eyniliyini təmin edir. Lakin ilkin çıxış mövqeyinin eyniliyi general və zabitlərin bu və ya digər prinsiplərin tələblərinin konkret vəziyyətdə tətbiqinə yanaşma fərqini istisna etmir [Радзиевский, 1974].

**5.Nəticə və tövsiyələr**

Hal-hazırda Azərbaycan ordusunun qarşısında qoşunların (qüvvələrin) əməliyyat tətbiqinin bütün mümkün formalarının tədqiq edilməsi, taktiki fəaliyyətlərin xarakteri və üsullarına görə daha əvvəl işlənilən klassik əməliyyatlardan fərqlənən birləşmiş qoşun (qüvvə) qruplaşmaları tapşırıqlarının həlli üzrə komandan və qərargahlara tövsiyələrin, təlimatların işlənib hazırlanması üzrə mürəkkəb tapşırıqlar durur. Nəzərə alsaq ki, Möhtərəm Prezident, cənab Ali Baş Komandan İlham Əliyevin Müdafiə nazirliyinin qarşısında qoyduğu əsas tapşırıqlardan biridə qısa vaxt ərzində Azərbaycan ordusunun kiçik türk modelinə uyğunlaşdırılması kimi ümdə vəzifə durur.

Ümumiyyətlə Azərbaycan ordusu yarandığı gündən Əməliyyat məharətinin bütün inkişaf dövrü ərzində, Əməliyyat Baş İdarəsi bu və ya digər şəraitə uyğun müxtəlif növ birlikləri ilə əməliyyatların (döyüş fəaliyyətlərinin) hazırlanması və aparılması üzrə

nəzəriyyə və praktik tövsiyələri mütamadi olaraq yeniləyir. İnnovasiya texnologiyaların (elmi-texniki tərəqqinin) nailiyyətləri, kəşfiyyat, rabitə və naviqasiya sistemlərinin, uzaqvuran yüksək dəqiqlikli silah sistemi və komplekslərinin inkişafı, eyni zamanda yeni fiziki əsaslı zərərvurma vasitələrinin yaradılması qoşun (qüvvə, birlik) tətbiqinin müxtəlif variantlı zərbə forması kimi əhəmiyyəti və rolunu yüksək dərəcədə artırır. Buna görə də perspektivdə qoşunların (qüvvələrin) bütün əməliyyat tətbiqi formaları əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qalacaq, döyüş fəaliyyətlərinin hazırlanması metodu və aparılma üsulları dəyişəcəkdir.

Hazırkı şəraitdə prinsiplər xüsusilə vacibdir, Döyüş prinsipləri komandiri idarəetmə fəaliyyətində əqlə, zəkaya deyil (volyuntarizm), əsasən iradəyə üstünlük verən mənəvi cərəyan və yanlış addımlardan çəkindirməyə ünvanlanıblar. Onlar toplanılmış hərbi təcrübə ilə hesablaşmağa, hərbi işin inkişafındakı tarixi qanunauyğunluqları və tendensiyaları nəzərə almağa vadar edir. Generallar və zabitlər üçün prinsiplər elə oriyentirlərdir ki, onlara müraciət edərək düşməni darmadağın etmək və ya onun hücumunun qarşısını almaq üçün onlar sərəncamda olan qüvvə və vasitələrdən rasional istifadə yollarını tapırlar.Prinsipləri bilmək və onlardan bacarıqla istifadə etmək onlara hərəkətlərində inam və məqsədyönlülük verir. Prinsiplərin tələbləri nə qədər çox nəzərə alınsa, adətən komandirlərin qəbul etdikləri qərarlar da bir o qədər optimal, məqsədəuyğun olar.

Tədqiqatların təhlili nəticəsində müəyyən olmuşdur ki, hərbi sənət prinsiplərinin dönməz təsiri, həyatiliyi ondadır ki, onlar silahlı mübarizənin təbiəti və xarakterini, qanunauyğunluqlarını obyektiv əks etdirir və buna görə də komandirlərə, qərargahlara ən mürəkkəb şəraitlərdən düzgün qərar vermə, silah və döyüş texnikasının tətbiqinin ən səmərəli üsullarını tapmağa, məharətlə rəqibin darmadağın olmasına nail olmağa imkan verir.

Döyüşün aparılması prinsiplərini bilmək komandirlərə və qərargahlara praktiki fəaliyyətlərində köməklik göstərir, qoşunlarla idarəetmədə məntiqə uyğun təşəbbüsü və yaradıcılığı göstərməyə imkan yaradır. Məqalədə komandirlərə döyüşün aparılması prinsiplərini əldə rəhbər tutaraq, onlara döyüş qarşısında qoyulmuş məqsədə çatmağın düzgün həlli yolları göstərilir.

Yekunda nəticə olaraq bu araşdırmanın məqsədi əməliyyat məharətinin, hərb sənətinin ən mühüm tərkib hissəsi kimi fasiləsiz inkişaf etməsini, rolu və əhəmiyyətinin müasir şəraitdə əvəzolunmaz dərəcədə artdığını göstərməkdir.

## 6.REFERENCES


1. Vorobyev, I. N. (2002). *Tactics – The art of combat*. Moscow. (in Russian)
2. (2019). *General tactics. Army corps in defense (attack)*, Baku: 226 p. (in Azerbaijani)
3. (2015). *Combat manual on tactical activities of ground forces (Part I)*. Baku: Military Publishing House, 406 p. (in Azerbaijani)
4. Piriyev, H. K., Tahirov, R. K., & Iskenderov, X. I. (2022). *Second Karabakh War: Military-political analysis*. Baku: Military Publishing House, 28 p. (in Azerbaijani)
5. (1988). *General tactics. Offensive: Division (Regiment)*. Moscow: Military Publishing House, 352 p. (in Russian)
6. Klauzevits, K. F. von. (2015). *On war*. Moscow: Eksmo, 512 p. (in Russian)
7. Radzievskiy, A. I. (1974). *Methodology of tactical training of staff and troop officers*. Moscow: Military Publishing House, 397 p. (in Russian)
8. (n.d.). *Armenia–Azerbaijan Nagorno-Karabakh conflict*. State Committee for Refugees and Internally Displaced Persons of the Republic of Azerbaijan. Retrieved from https://idp.gov.az/uploads/files/Dagliq_Qaraag_munaqishesi.pdf (in Azerbaijani)

## ƏDƏBİYYAT

1. Воробьёв, И. Н. (2002). *Тактика – искусство боя*. Москва.
2. (2019). *Ümumi taktika. Ordu korpusu müdafiədə (hücumda)*. Bakı, 226 səh.
3. (2015). *Quru Qoşunların taktiki fəaliyyətləri üzrə döyüş təlimatı* (I hissə). Bakı: Hərbi Nəşriyyat, 406 səh., MN.
4. Piriyev, H. K., Tahirov, R. K., & İskəndərov, X. İ. (2022). *İkinci Qarabağ müharibəsi: Hərbi-siyasi təhlil*. Bakı: Hərbi Nəşriyyat, 28 s.
5. (1988). *Общая тактика. Наступление: дивизия (полк)*. Москва: Воениздат, 352 с.
6. Клаузевиц, К. Ф. фон. (2015). *О войне*. Москва: Эксмо, 512 с.
7. Радзиевский, А. И. (1974). *Методика тактической подготовки офицеров штабов и войск.* Военное издательство, 397 s.
8. (n.d.). *Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi.* Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi. Retrieved from https://idp.gov.az/uploads/files/Dagliq_Qaraag_munaqishesi.pdf